

*Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir*
**Heydər ƏLİYEV**


# GÖMRÜK XƏBƏRLƏRİ

**21 MAY 2021-ci il**
**№ 16 (1202)**

*Qəzet 1995-ci il iyunun 30-dan çıxır*

CUSTOMS NEWS | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin orqanı | ВЕСТНИК ТАМОЖНИ


# Cənubi Qafqaz üçün yeni yanaşmaya, yeni gündəliyə ehtiyac duyulur

***Mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda müzakirələri keçirilib.***



Müzakirələri açan Dünya Bankının sabiq vitse-prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin çıxış edərək dedi ki, bu, mərkəz üçün böyük bir gündür. Biz çox şadıq ki, Prezident İlham Əliyev bizim dialoqa qoşulur və Azərbaycan, eləcə də regionla bağlı öz planları və istəklərini bizimlə bölüşür. Cənab Prezident, səkkiz il öncə, Siz dahi Azərbaycan şairi Nizami Gəncəvinin irsini tanıtmaq üçün Beynəlxalq Mərkəzin yaradılmasına dair tapşırıq verdiniz. Bu quruma beynəlxalq üzvlər qoşuldu, onun İdarə Heyəti yaradıldı. Daha sonra Mərkəzin işini və proqramını müəyyən etmək üçün həmsədrlər seçildi və baş katib təyin olundu.

Cənab Prezident, Siz bizə etimad göstərdiniz və ümid edirik, biz Sizin etimadınızı doğrulda bildik. Səkkizillik dövrdə çox işlər görülüb, Siz də onlara böyük dəstək vermisiniz. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi beynəlxalq səviyyədə get-gedə daha çox tanınır. Bakı Qlobal Forumu regionda birinci dərəcəli tədbirə çevrilib və beynəlxalq təqvimdə xüsusi yer tutmağa nail olub. Dünyanın bir çox tanınmış şəxsləri tədbirlərdə iştirak edib. Forumdan başqa, Mərkəz bir çox digər tədbirləri də təşkil etdi, Balkanları, Cənubi Qafqazı və Avropanı müzakirəyə çıxartdı. Daha sonra, təşkilatımız beynəlxalq fəaliyyətini genişləndirərək, ABŞ və BMT ilə əlaqələr qurmaq strategiyasını qəbul etdi və daha da inkişaf edən Çinə də diqqət yetirməyə başladı.

Cənab Prezident, bütün sahələrdə biz Nizaminin irsini və Azərbaycanın zəngin mədəniyyətə malik ölkə kimi mövqeyini təşviq etmişik. Biz bəşəriyyətin üzləşdiyi çağırışların müzakirə edildiyi platformaya çevrilmişik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tədris, dözümlülük, dialoq və anlaşma ünvanı kimi tanınmağa başladı. Lakin bundan sonra pandemiya baş verdi. Biz 2020-ci ildə keçiriləcək Bakı Qlobal Forumunu təxirə salmaq məcburiyyətində qaldıq. Bununla belə, yəqin Siz məmnunluqla qəbul edərsiniz ki, 2021-ci ilin sonrakı aylarında Bakı Qlobal Forumunun çox uğurla keçirilməsində israrlıyıq. Biz İdarə Heyətinin təlimatları ilə və baş katib Rövşən Muradovun rəhbərlik etdiyi katibliklə birgə "Bakı Qlobal Forumu 2021"in məzmunu və təşkili sahəsində Hikmət Hacıyev və Sizin Protokol xidmətinizlə sıx işləyirik ki, tədbirimiz təqvimə və istəklərimizə uyğun keçsin.

COVID-19 pandemiyasına, məhdudiyyətlərə və səfərlərin təxirə salınmasına baxmayaraq, mərkəzimiz çox fəal işləyir. Biz yeni texnologiyalardan tam yararlanmaqla öz səylərimizi göstəririk. Biz 28 konfransa, 90 sessiyaya ev sahibliyi etdik. Tədbirlərimizdə 370 məruzəçi çıxış edib, 60 ölkədən iştirakçılar bizə qoşulub. İstənilən mövzuları əhatə etmişik: pandemiya qarşısında qlobal həmrəylikdən tutmuş, formalaşan dünya nizamı və multilateralizmin gücləndirilməsi yollarına qədər. Ərzaq təhlükəsizliyi, təhsil məsələləri, sülhün əldə olunmasında qadınların rolu da müzakirəyə çıxarılıb. Bütün bu işləri görərkən biz mötəbər təşkilatlarla, tanınmış laureatlarla və şəxslərlə tərəfdaşlıq qurmuşuq. Dostlarımız və tərəfdaşlarımızın sayını iki dəfə artırmışıq. Biz Çindən olan nümayəndəyə - elmlər doktoru Şana bizim beynəlxalq dostlar şuramıza həmsədrlik etdiyinə görə minnətdarıq.

Bütün bu tədbirlərlə yanaşı, biz pandemiyaya və onun fəsadlarına qarşı mübarizədə göstərilən səylərdə və həmrəylik təşəbbüslərində çox fəalıq. İnanırıq ki, Zati-aliləriniz, bu işlə əlaqədar çox yerlərdən müsbət rəy alıb. Biz, həmçinin bir çox materialları çap edib yaymışıq. Bu işə bir çox yerli tanınmış şəxsləri cəlb etmişik. Fəaliyyətimiz media tərəfindən də dəyərləndirilib. Bir ildə 12 təşəkkür məktubu almışıq. Onların əksər hissəsi "Ehtiyacı olan insanlara yardım" təşəbbüslərinə görə təqdim edilib. Hazırda İngiltərənin sabiq Baş naziri Qordon Braun bizim adımızdan 7-lər və 20-lər Qrupuna təqdim ediləcək məktubun yekun variantı üzərində çalışır.

Ötən ilə nəzər saldıqda, deyə bilərik, bu dövr Mərkəzin artan beynəlxalq nüfuzu ilə yadda qalan, çox intensiv iş ilə seçilən, mühüm beynəlxalq təşkilatlarla və dünyanın elmlər akademiyaları, elmi təsisatları ilə əməkdaşlığın genişləndiyi il olub. Dünya mətbuatında da mövqeyimizi gücləndirdik. Ümid edirik ki, sonuncu görüşdə Zati-alinizə haqqında danışdığımız işləri gələn həftələr ərzində başa çatdıracağıq.

Sonra Latviya Respublikasının sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa çıxış edərək dedi ki, biz bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev arasında dialoqda iştirak etməkdən böyük iftixar hissi duyuruq. Bu görüşə Prezidentin nitqi ilə başlayacağıq. Sonra isə sual-cavablara keçəcəyik. Biz dəvətimizi qəbul etdiyinə görə cənab Prezidentə minnətdarıq.

Cənab Prezident, dünyanın bu çətin durumunda Azərbaycanın mövqeyi, ölkənin gələcəyinə dair planlarımızla və onların dünya gündəliyinə necə uyğunlaşması ilə əlaqədar Sizin mülahizələrinizi səbirsizliklə gözləyirik. Cənab Prezident, şərhlərinizi eşitməyi səmimiyyətlə arzulayırıq.

Azərbaycan Prezidenti İlham Əliyev bütün iştirakçıları salamlayaraq, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrinə və üzvlərinə bu müzakirələri başlatdığına görə təşəkkürünü bildirdi. Dövlət başçısı qeyd etdi ki, bu, çox yerinə düşən tədbirdir. Təklif etdiyiniz mövzuya gəldikdə isə, "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri", fikrimcə, qlobal gündəlikdə duran mühüm məsələlərdəndir, çünki bu yaxınlarda Cənubi Qafqaz regionunda kəskin dəyişikliklər oldu. Əlbəttə ki, yeni vəziyyət yeni yanaşmaları tələb edir.

Lakin, əvvəlcə, mən pandemiya dövründə çox yaxşı fəaliyyətinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik etmək istəyirəm. Bu Mərkəz yeni şəraitə özünü çox müdrik formada uyğunlaşdırdı. Pandemiya ilə bağlı vəziyyətdən asılı olmayaraq, öz fəaliyyətini yeni formada davam etdirdi. Eyni zamanda, bu fəal işin aparıldığı səkkiz il ərzində Mərkəz dünyada aparıcı beynəlxalq təsisatlardan birinə çevrilmişdir. Onun geniş fəaliyyəti, əslində, dünyada sülh, əməkdaşlıq, təhlükəsizlik və sabitlik işinə xidmət edir. Mərkəzin üzvləri ölkələrinə, yaxud beynəlxalq təşkilatlara uzun illər rəhbərlik etmiş məşhur dünya siyasətçiləridir. Sizin təcrübəniz həqiqətən unikaldır. Bir sözlə, bu cür təcrübənin bir araya toplanması, hesab edirəm ki, bugünkü dünyada nadir hadisədir.

Nəyin baş verdiyi və nəyin baş verəcəyi ilə bağlı Azərbaycanın mövqeyinə gəldikdə, əlbəttə ki, əvvəlcə, demək istərdim ki, regionda son hadisələr, İkinci Qarabağ müharibəsi vəziyyəti tam dəyişdi. Bu səbəbdən, Cənubi Qafqaz üçün yeni yanaşmaya, yeni gündəliyə ehtiyac duyulur.

"Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" mövzusunda müzakirəni yüksək dəyərləndirirəm, çünki bizim məhz buna ehtiyacımız var. Demək olar ki, 30 il çəkən işğal faktı səbəbindən, Azərbaycan öz mövqeyini birmənalı şəkildə bəyan etdi ki, biz ərazilər azad olunmayana qədər Ermənistanla əməkdaşlıq etməyəcəyik. Hesab edirəm, Ermənistanın özü də başa düşür ki, onlar çox böyük səhvə yol veriblər. Onlar vaxt itirdilər. Əgər bugünkü Ermənistandakı vəziyyətə nəzər salsaq, görərik ki, Ermənistan müstəqilliyi qazanan zaman ilə müqayisədə vəziyyət daha ağırdır. Çünki bu gün Ermənistanın ordusu belə yoxdur. O, tamamilə məhv edilib. Ölkə altı aydan çoxdur ki, daimi siyasi böhran içindədir. Cəmiyyətdə böyük dərəcədə inamsızlıq yaranıb, qarşılıqlı ittiham irəli sürülür. Bəzi siyasi liderlərin ritorikası hər hansı bir qəbul edilən çərçivədən tam uzaqdır.

Bir sözlə, onlar vaxt itirdilər. Onlar Azərbaycanın enerji və daşımaların inkişafı təşəbbüslərindən məhrum oldular. Nəhayət, onlar işğal etdikləri əraziləri itirdilər. O ərazilər ki, onlara nə tarixi nöqteyi-nəzərdən, nə də ki, beynəlxalq hüquq baxımından məxsus deyildi. İndi isə, münaqişə başa çatdıqdan sonra, Dağlıq Qarabağ münaqişəsi, ilk növbədə, Azərbaycan tərəfindən, sonra isə ötən ilin 10 noyabr tarixli birgə Bəyanat ilə artıq həll olunub.

Biz indi gələcəyə baxmalıyıq. 30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara və onların məhv etdiklərinə baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır. Ümid edirik ki, vaxt gələcək və biz, sözün əsl mənasında, Cənubi Qafqazda fəal əməkdaşlıqdan və inteqrasiyadan danışacağıq. Biz artıq çox mühüm təkliflərlə və təşəbbüslərlə çıxış etmişik və yeri gəlmişkən, onlar 10 noyabr 2020-ci il tarixli birgə Bəyanatda da əks olunub. Bu, xüsusən də, kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılması ilə bağlıdır. Sizə deyə bilərəm ki, bu layihənin həyata keçirilməsi ilə bağlı iş artıq başlayıb. Azərbaycan bu məqsədlə artıq texniki və maliyyə imkanlarını ayırıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq. Bu səbəbdən, bildirmək istəyirəm ki, Azərbaycan əməkdaşlığa və ümumi gələcəyimizin planlaşdırılmasına açıqdır, çünki biz istəsək də, istəməsək də qonşuyuq və yanaşı yaşamalıyıq və bir daha bu birgə yaşamanı öyrənməliyik. Bu, asan deyil. Burada emosiyalar var. Xüsusən də, Azərbaycan xalqı azad edilmiş torpaqlara səfərlər etdiyi zaman və tam yerlə-yeksan olunan yerləri görəndə, siz yəqin ki, təsəvvür edə bilərsiniz, hansı hissləri keçirirlər. Lakin siyasətçilərin rolu öz gündəliklərini müdafiə etməkdən və yalnız qarşılıqlı fəaliyyət sayəsində regionda dayanıqlı inkişafın, sülhün və təhlükəsizliyin olacağını izah etməkdən ibarətdir.

Daha sonra Prezident İlham Əliyev tədbir iştirakçılarının suallarını cavablandırdı.

# Azərbaycan öz öhdəliklərinə sadiq olduğunu bir daha nümayiş etdirir

***Son 17 ildə yaranan potensial Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyada enerji təhlükəsizliyi ilə bağlı etibarlı tərəfdaşlardan birinə çevrilib. Bütün bunlar, əlbəttə ki, Azərbaycanın regionda iqtisadi rolunu daha da yüksəldib.***

Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamında qeyd edildiyi kimi, həyata keçirilən yeni strategiya sayəsində ölkə iqtisadiyyatının həcmi 17 ildə 3 dəfədən çox böyüyüb, güclü sosial-iqtisadi infrastruktur yaradılıb. Mütərəqqi islahatlar hesabına ölkənin sosial-iqtisadi potensialı artıb, iqtisadiyyatın xarici təsirlərə dözümlülüyü yaxşılaşıb.

Məhz dövlət başçısının yeni inkişaf strategiyası əsasında əldə edilən iqtisadi üstünlük, uzun illər formalaşdırılmış ictimai-siyasi və sosial-iqtisadi bünövrə ölkənin qüdrətinin hərtərəfli yüksəlişini şərtləndirib.

İkinci Qarabağ müharibəsində qazanılan qələbədən sonra Azərbaycanda mahiyyət etibarilə yeni dövr başlayıb. Dünya iqtisadiyyatına hələ də ciddi təsir etməkdə olan qlobal pandemiya ilə mübarizə tədbirləri ölkəmizə təsirsiz ötüşməsə də, dövlətin iqtisadi qüdrəti imkan verir ki, həm işğaldan azad edilmiş torpaqlarımızda abadlıq-quruculuq prosesləri, həm pandemiyaya qarşı mübarizə tədbirləri, həm də qarşıdakı dövr üçün yeni mütərəqqi islahatları reallığa çevirmək mümkün olsun.

Bütün dövrlərdə baş verə biləcək neqativlərə qarşı əvvəlcədən tədbirlər görən, mühüm qərarlar qəbul edən Prezident İlham Əliyev yeni dövrdə də Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi, növbəti onillikdə sosial-iqtisadi inkişafının yüksəlişinin təmini üçün Milli Prioritetlər müəyyənləşdirib. Sosial-iqtisadi inkişafa dair hazırlanan prioritetlər özündə beş istiqaməti cəmləşdirir - dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Qarşıdakı 10 illik müddəti əhatə edən bu vacib iqtisadi sənəd eyni zamanda postmüharibə dövrünün reallıqlarını özündə əks etdirir. Həmçinin növbəti onillikdə iqtisadi artımın davamlı olmasını, milli iqtisadiyyatın daha da şaxələndirilməsini təmin etmək baxımından tamamilə yeni imkanlar açır. Yəni, Milli Prioritetlər ölkəmizin bütün sahələrdə sürətli inkişafına təkan verən vəzifələrin müəyyən olunması baxımından xüsusi əhəmiyyətə malikdir.

İqtisadçılar hesab edirlər ki, Milli Prioritetlər mühüm dövlət konsepsiyasıdır, burada nəzərdə tutulan tədbirlər həddindən artıq geniş və çoxşaxəlidir və bir çox dövlət orqanları qarşısında mühüm vəzifələr durur. Ona görə də Milli Prioritetlərə əsasən, müxtəlif proqram və layihələr hazırlanacaq.

Vətən müharibəsində əldə olunmuş tarixi qələbə həm də ölkəmiz üçün yeni iqtisadi imkanlar açıb. Ona görə də bu mərhələdə Azərbaycanın yeni inkişaf yolunun xəritəsi də müəyyənləşməli idi.

Prezident İlham Əliyev beş prioritetin iki bəndini (işğaldan azad olunmuş ərazilərə böyük qayıdış və təmiz ətraf mühit, "yaşıl artım" ölkəsi) məhz bu istiqamətə uyğun müəyyənləşdirib. Çünki işğaldan azad olunmuş ərazilər böyük iqtisadi potensiala malikdir və təbii ki, Azərbaycan bu potensialdan maksimum yararlana bilər. Bu iki istiqamətin uğurlu icrası da onu deməyə əsas verir ki, tezliklə Qarabağın iqtisadi imkanlarından əldə ediləcək dividendlər ölkənin qüdrətinin daha da yüksəlişi üçün real zəmin yaradacaq. Çünki Qarabağda dağ-mədən sənayesi, metallurgiya, yeyinti sənayesi, trikotaj, turizm, aqrar və "yaşıl enerji" kimi sahələrin böyük inkişaf potensialı var. Yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması isə ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına da əhəmiyyətli təkan verəcək.

Dövlət büdcəsi hesabına Qarabağda 2,2 milyard manatlıq sərmayə qoyuluşu da təsdiq edir ki, işğaldan azad edilmiş ərazilərdə yaradılacaq iqtisadi infrastrukturlar dayanıqlı inkişafa böyük imkan yaradacaq. Eyni zamanda, xarici dövlətlərin iri şirkətləri bu gün işğaldan azad edilmiş torpaqlarda investisiya yatırımına böyük maraq göstərirlər. Artıq Türkiyə, İtaliya, Böyük Britaniya, Pakistan, İsrail kimi dövlətlərdən Qarabağın bərpasına sərmayə axını başlayıb.

*davamı 2-ci səh.*

# Azərbaycan öz öhdəliklərinə sadiq olduğunu bir daha nümayiş etdirir

*əvvəli 1-ci səh.*

Mayın 3-də dövlət başçısı İlham Əliyev bu istiqamətdə görüləcək işlərlə bağlı Prezidentin Ehtiyat Fondundan 1.391.040 ABŞ dollarının manat ekvivalenti məbləğində, yəni 2 milyon manatdan çox vəsait ayırdı. Dövlət başçısının imzaladığı sərəncama əsasən işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkət cəlb ediləcək.

Göründüyü kimi, Qarabağda tikinti-quruculuq proseslərinin sürətləndirilməsi üçün mühüm addımlar atılır, vacib qərarlar qəbul edilir. Ona görə də əminliklə deyə bilərik ki, dövlət başçısının müəyyən etdiyi Milli Prioritetlər qarşıdakı 10 il ərzində ölkəmizdə müşahidə olunan sosial-iqtisadi inkişafı tamamilə və keyfiyyətcə yeni mərhələyə yüksəldəcək və Azərbaycan inkişaf etmiş ölkələr sırasında layiqli yerini möhkəmləndirəcək.

Bəli, Qarabağda tikinti bumu başlayıb. 44 günə "dəmir yumruq" əməliyyatı ilə bu torpaqları düşməndən təmizləyən Prezident İlham Əliyev indi dəmir iradə ilə qurub-yaratmaqla məşğuldur. Tez-tez Qarabağa səfər edib görülən işlərlə şəxsən maraqlanması, böyük infrastruktur layihələrinin təməlini qoyması, iştirak etdiyi toplantılarda, keçirdiyi görüşlərdə dost və tərəfdaş ölkələrin şirkətlərini Qarabağa investisiya yatırmağa dəvət etməsi bir daha Prezidentin gündəliyinin prioritetinin işğaldan azad edilmiş əraziləri cənnətə çevirməkdən ibarət olduğunu göstərir.

Cəbrayıl və Zəngilana növbəti səfəri zamanı Prezident İlham Əliyev hər bir azərbaycanlını qürurlandıracaq addımlar atdı. Zəngilanda Beynəlxalq Hava Limanının və Zəngilan-Horadiz avtomobil yolunun, həmçinin "ağıllı" kənd pilot layihəsinin təməlini qoydu. "Böyük Qayıdış"a start verən dövlət başçısı dosta da, düşmənə də mesaj verdi: Qarabağı dəmir yumruqla aldığı kimi, quruculuğuna, dirçəlişinə də memarlıq edir və bunun üçün lazımi gücü, qüvvəsi də var!





Zəngilanda yeni hava limanının tikintisi ilə işğaldan azad edilmiş torpaqlarda ikinci hava limanının inşasına start verildi. Bundan öncə Prezident İlham Əliyev Füzuli Beynəlxalq Hava Limanının təməlini qoymuşdur və bu gün tikintisi uğurla gedir. Prezident bu il Füzuli hava limanının uçuş-enmə zolağının istismara veriləcəyinin müjdəsini də verdi. Bu isə o deməkdir ki, 2021-ci ildə Füzuli aeroportu ilk təyyarələri qəbul edə biləcək.

Coğrafi yerləşməsi və əlverişli nəqliyyat-logistika imkanları Zəngilan rayonunun da bu istiqamətdə güclü potensialının olduğunu göstərir. Ona görə də Prezident İlham Əliyev bu rayonda da hava limanının inşası barədə qərar verib. Bu səfər çərçivəsində isə limanın təməlini də qoyaraq növbəti aereportun Laçında inşa olunacağını söylədi və bu hava limanlarının əhəmiyyətini dəyərləndirdi: "Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və Şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır".

Horadiz-Zəngilan avtomagistral yolu isə geniş imkanlar açacaq. Yəni Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvanla birləşdirmək üçün bu layihələrin çox böyük əhəmiyyəti var. Ümumiyyətlə, Avrasiya geoiqtisadi arealında Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə verən Azərbaycan beynəlxalq nəqliyyat-logistika məkanlarından biri hesab olunur.

Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan çox mühüm beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişməsində yerləşməsi və əlverişli geosiyasi, coğrafi mövqe Azərbaycana malik olduğu zəngin karbohidrogen ehtiyatları qədər yeni dividendlər qazanmaq şansı yaradıb. Hazırda Azərbaycanın dünya dövlətləri, güc mərkəzləri ilə münasibətlərinin təməlində məhz üstün geosiyasi, geoiqtisadi və coğrafi reallıqlar dayanır ki, bu da müvafiq olaraq ölkənin strateji maraqlarının yüksək səviyyədə təmin olunmasında aparıcı rol oynayır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə gerçəkləşən, Azərbaycanın iştirakçısı olduğu digər qlobal miqyaslı layihələr, həqiqətən də ölkəmizin dünya miqyasında siyasi, iqtisadi çəkisini daha da artırıb. Azərbaycan məhz bu reallıqlara görə ən etibarlı tərəfdaş kimi qəbul edilir.

İkinci Qarabağ müharibəsindəki qələbədən sonra Azərbaycanın nəqliyyat-kommunikasiya, logistika imkanlarını genişləndirməsi üçün çox əlverişli imkan yaranıb. Vətən müharibəsinin sonunda Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları birgə Bəyanatda Zəngəzur dəhlizinin açılması da müddəa kimi qeyd edilib. Yəni Ermənistan "Zəngəzur nəqliyyat dəhlizi"nin gerçəkləşməsini təmin etməlidir. Bu dəhlizin açılması isə uzun illər blokadada olmuş Naxçıvan Muxtar Respublikasını bu şəraitdən çıxarmaqla yanaşı, xalqımızın 101 ildən sonra tarixi ərazisi olan qədim Zəngəzura yendən qayıdışını təmin edəcək.

Razılaşdırmaya əsasən, Ermənistan Azərbaycanın qərb bölgələri ilə muxtar respublika arasında nəqliyyat əlaqəsinin qurulmasına zəmanət verir. Bəyanatın şərtinə əsasən, Zəngəzur dəhlizi Laçın dəhlizindən fərqli olaraq ərazi dəhlizi deyil, nəqliyyat dəhlizi funksiyası rolunu oynayacaq.

Zəngəzur dəhlizinin yaradılması layihəsinin birbaşa müəllifi olan Azərbaycan Prezidenti müharibədən sonra iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə, görüşlərdə dost və strateji tərəfdaş olan ölkələri, xüsusən də Türk Şurasının, İqtisadi Əməkdaşlıq Təşkilatının üzvlərini bu dəhlizin yaradılması prosesinə töhfə verməyə dəvət edib.

Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələrinin bütün türk dünyasını birləşdirəcəyini, digər ölkələr, o cümlədən Ermənistan üçün əlavə imkanlar yaradacağını xüsusi vurğulayan Prezident İlham Əliyev aprelin 26-da Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri də bu nəqliyyat dəhlizinin potensialını nəzərdən keçirməyə çağırdı. Prezident işğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən layihələr barədə tərəfdaş ölkələri məlumatlandıraraq dedi ki, əksər istiqamətlərdəki yenidənqurma prosesi çərçivəsində "ağıllı" şəhər, "ağıllı" kənd və "yaşıl enerji" konsepsiyalarından istifadə olunacaq. Ona görə də dövlət başçısı dost ölkələrdən olan şirkətləri də təkliflər irəli sürərək bu layihələrin reallaşması prosesinə, yəni irimiqyaslı yenidənqurma işlərinə dəvət etdi.

BMT-nin qərargahı Tailandda yerləşən Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının "Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması" mövzusuna həsr edilən 77-ci sessiyasında çıxış edən Prezident hazırda Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində iş görüldüyünü söylədi. Dövlət başçısı İlham Əliyev bəyan etdi ki, bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək: "Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm".

Müharibədən sonra Prezidentin dost ölkələrə müraciəti öz müsbət nəticəsini göstərir. Bu gün bir çox ölkənin böyük şirkətləri Qarabağda icra olunan layihələrə töhfə verir. Zəngilanda "ağıllı" kənd pilot layihəsinin təməlinin qoyulması mərasimində bir çox layihənin gerçəkləşmə prosesində iştirakçı dost ölkələr görünür.

Bu dost ölkələrlə Azərbaycan arasında olan əməkdaşlığı yüksək dəyərləndirən Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bütün layihələr uğurla icra ediləcək: "Türkiyədən, Çindən, İsraildən, İtaliyadan olan şirkətlər var, hamısı dost ölkələrdir. Bu, həqiqətən də, yaxşı beynəlxalq əməkdaşlıqdır və mən əminəm ki, bu, sadəcə olaraq, ilk addımdır. Bu layihənin uğurlu icrası, sözsüz, bizə imkan verəcək ki, bu təcrübədən Qarabağın digər yerlərində istifadə edək. Çünki biz yüzlərlə kənd, qəsəbə və şəhərləri bərpa etməliyik".

Bütün bunlar isə göstərir ki, Prezident İlham Əliyev tək ölkəmiz üçün deyil, həm də region üçün gələcək qurmaqla bağlı təkliflər irəli sürür, yeni inkişaf strategiyası müəyyənləşdirir. Artıq bu prosesə start verilib və Azərbaycan yenidənqurma işlərinə, bütün region ölkələri üçün və nəticədə regionda sabitlik, proqnozlaşdırılma üçün faydalı olacaq layihələri həyata keçirməyə başlayıb. Bununla da Vətən müharibəsindən sonra da çox konstruktiv yanaşma nümayiş etdirən Azərbaycan öz öhdəliklərinə sadiq olduğunu bir daha nümayiş etdirir.

Bu gün mühüm hədəflərdən biri işğaldan azad edilmiş torpaqlarımızda bərpa, quruculuq işlərinin sistemli şəkildə reallaşması və yüksəliş dövrünün başlanmasıdır. Tarixi zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərin malik olduğu potensialın ölkəmizin ümumi iqtisadiyyatına yönəldilməsi dayanıqlı inkişafa böyük təkan verəcək. Bu çərçivədə bölgədə təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi region iqtisadiyyatının ümumi mənzərəsinin müəyyənləşdirilməsində Azərbaycanın rolunu daha da gücləndirəcək.

Son 17 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi sistem xarakterli iqtisadi islahatlar və qlobal çağırışlara uyğun olaraq hazırlanmış strateji yol xəritələrinin icrası Azərbaycanı dünyanın əlverişli investisiya məkanlarından birinə çevirib. Avrasiyanın əsas logistika mərkəzlərindən biri kimi qəbul edilən ölkəmiz şimaldan cənuba və şərqdən Qərbə yüklərin daşınmasında mühüm nəqliyyat qovşağı kimi tanınır. "Zəngəzur nəqliyyat dəhlizi"nin reallığa çevrilməsi isə əlbəttə ki, ilk növbədə regionda sabitliyi möhkəmləndirəcək və Azərbaycanın logistik imkanlarını daha da şaxələndirəcək. Bu, həm region ölkələri, həm də dəhlizdən istifadə edəcək ölkələr üçün real imkanlar yaradacaq.

Cəbrayıl və Zəngilana səfəri çərçivəsində Mincivan qəsəbəsində olan Prezident bu dəhliz barədə maraqlı fikirlər səsləndirdi. Mincivanın əvvəlki şöhrətinin özünə qaytarılacağını vurğulayan dövlət başçısı İlham Əliyev həm dəmir, həm də avtomobil yollarının bərpa ediləcəyini söylədi: "Dəmir yolu yenidən qurulacaq, vağzal da həmçinin. Dəmir yolunun yenidən qurulması prosesinə start verildi. Horadizdən Ağbəndə qədər dəmir yolu çəkiləcək. Ondan sonra Zəngəzur dəhlizi ilə dəmir yolu Naxçıvana qədər uzadılacaq. Zəngilan coğrafi nöqteyi-nəzərdən Şərqi Zəngəzur bölgəsinə aiddir və Şərqi Zəngəzurda yerləşir. Qərbi Zəngəzur da bizim tarixi torpaqlarımızdır və o torpaqlardan Zəngəzur dəhlizi keçəcəkdir. Beləliklə, Azərbaycanın əsas hissəsi Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu vasitəsilə birləşəcək".

Prezident İlham Əliyevin bir müddət öncə təməlini qoyduğu Horadiz-Ağbənd dəmir yolu Azərbaycanın əsas hissəsini Naxçıvanla Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcək. Təbii ki, böyük coğrafiyanı əhatə edən beynəlxalq layihələrdə Azərbaycanın imzasının olması dövlət başçısı İlham Əliyevin Qalib Sərkərdə kimi güc və qətiyyətinin, Prezident kimi isə uğurlu xarici siyasi diplomatiyasının bariz təcəssümüdür. Tezliklə bu dəhlizin fəaliyyətə başlaması ilə Azərbaycanın həm nəqliyyat-logistika imkanları genişlənəcək, həm də siyasi və iqtisadi qüdrəti daha da artacaq.

# Baş Prokurorluq və Dövlət Gömrük Komitəsinin Mətbuat xidmətlərinin birgə məlumatı

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən gömrük rəsmiləşdirilməsi zamanı süründürməçiliyə yol verilməklə qeyri-qanuni tələblərin irəli sürülməsi barədə 30 mart 2021-ci il tarixdə daxil olmuş məlumat əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində (KQMBİ) ilkin araşdırma aparılmaqla birgə əməliyyat-axtarış tədbirləri həyata keçirilmişdir.***

Aparılmış əməliyyat-istintaq tədbirləri zamanı Bakı Baş Gömrük İdarəsinin Xüsusi Gömrük prosedurları şöbəsinin rəisi Aydın Eylazov, həmin struktur qurumun Gömrük prosedurları və ödənişləri şöbəsinin baş inspektorları Elmar Mirzəyev və Emin Xəlilov, "İpək Yolu" gömrük postunda inspektor işləyən Mirağa Ağayev, habelə "Global Broker" MMC-nin direktoru olmaqla "D2D Logistics" MMC-də gömrük işləri üzrə mütəxəssis işləyən Ceyhun Şabanovun idxal olunmuş malların gömrük orqanından çıxarılmasının tezləşdirilməsi, eləcə də müəyyən malların sərbəst dövriyyəyə buraxılışı üçün ödənilməli olan gömrük rüsumları və vergilərin 3 faizi miqdarında müəyyən edilmiş məbləğdən idxal və əlavə dəyər vergisi üzrə ödənilməli olan pul vəsaitinin büdcəyə ödənilməyərək malın gömrük nəzarətindən buraxılmasına şərait yaradılması müqabilində müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində istəməklə almaları və vəzifə səlahiyyətlərindən sui-istifadə etmələrinə əsaslı şübhələr müəyyən olunmuşdur.

Qeyd olunanlarla bağlı 17 may 2021-ci il tarixində KQMBİ-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.2-ci (təkrar rüşvət alma) maddəsi ilə cinayət işi başlanmışdır.

Toplanmış sübutlar əsasında Elmar Mirzəyev, Emin Xəlilov, Mirağa Ağayev, Ceyhun Şabanov və Aydın Eylazov şübhəli şəxs qismində tutulmuşlar.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

İstintaqın gedişatı ilə əlaqədar ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

# ÜGT-nin Avropa regionunda "köklü dəyişmə yaradan texnologiyalar" mövzusunda seminarı




***Mayın 17-19 tarixlərində Ümumdünya Gömrük Təşkilatının Avropa regionunda "köklü dəyişmə yaradan texnologiyalar" sahəsində təcrübə mübadiləsi mövzusunda seminarı keçirilib.***

Onlayn seminarın açılış mərasimində ÜGT-nin Baş katibi Kunio Mikuriya, ÜGT-nin Avropa Regionu üzrə sədr müavini qismində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev iştirak ediblər.

ÜGT-nin Baş katibi Kunio Mikuriya dünyada baş verən texnoloji yeniliklərin gömrük sistemində də geniş tətbiq edildiyini bildirib, "köklü dəyişmə yaradan texnologiyalar"ın gömrük işinin daha sürətli və daha asan şəkildə reallaşdırılmasında əhəmiyyətindən bəhs edib. Baş katib vurğulayıb ki, süni intellekt və blokçeyn texnologiyalarının imkanlarından beynəlxalq ticarətdə geniş istifadə olunmalıdır və bu, gömrük işinin səmərəliliyinin artırılmasına təsir göstərəcək.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev texnoloji inkişafın, rəqəmsallaşmanın sosial və iqtisadi sahədə yeni dövr yaratdığını, süni intellekt, robotlar, əşyaların interneti, nano və biotexnologiyaların həyatın bütün sferalarına sirayət etdiyini diqqətə çatdırıb.

Bildirilib ki, ötən əsrin sonlarında meydana çıxan "köklü dəyişmə yaradan texnologiyalar" konsepsiyası texnologiyanın iqtisadiyyatda konstruktiv təsirləri ilə yanaşı, "dağıdıcı" təsirlərini də aktuallaşdırıb. Bu proses ölkələr səviyyəsində bütün tarazlıqların dəyişməsinə, rəqabət şərtlərinin yenidən formalaşmasına səbəb olub.



Komitə sədri vurğulayıb ki, Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi iqtisadi siyasətin əsas hədəflərindən biri də dövlət idarəçiliyində səmərəliliyin, şəffaflığın və operativliyin artırılması məqsədilə müasir texnologiyaların tətbiqinə və istifadəsinə xüsusi önəm verilməsidir. Gömrük orqanlarının da bu istiqamətdə xüsusi konsepsiya reallaşdırdığını diqqətə çatdıran Səfər Mehdiyev bildirib ki, Dövlət Gömrük Komitəsi ticarətin rəqəmsallaşdırılması üzrə səylərini daha da artıraraq müasir texnologiyaların tətbiqi hesabına modern sərhəd idarəçiliyi sahəsində bir çox uğurlar əldə edib.

Səfər Mehdiyev son illər Azərbaycan gömrük xidmətinin beynəlxalq ticarət əməliyyatlarında gömrük rəsmiləşdirilməsinin risk qiymətləndirilməsi əsasında daha çevik və şəffaf həyata keçirilməsi, idxal-ixrac prosedurları üzrə gömrük nəzarəti formalarının daha da optimallaşdırılması, tranzit daşımaları zamanı sənədləşmənin sadələşdirilməsi, elektron ticarətə əlverişli şəraitin yaradılması və xidmət səviyyəsinin yüksəldilməsinə yönəlmiş bir sıra önəmli layihələri barədə də məlumat verib.

Qeyd olunub ki, "Yaşıl dəhliz" və "Smart customs" layihələri, Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (NCTS) qoşulma, ÜGT-nin Yük Hədəfləmə Sisteminin Azərbaycan gömrük xidmətində tətbiqi ilə bağlı görülən işlər, beynəlxalq ticarət və tranzitin inkişafını dəstəkləyən bir sıra layihələr bu sahədə uğurlu nəticələrin əldə olunmasına şərait yaradıb.

Səfər Mehdiyev bu seminarın gömrük sistemində yeni texnologiyaların tətbiqinin potensial faydalarının öyrənilməsi, bu sahədə son nailiyyətlər və texnoloji yeniliklər barədə səmərəli fikir mübadiləsi aparılması, qabaqcıl təcrübələrin paylaşılması və əlaqələrin daha da möhkəmləndirilməsi baxımından faydalı olacağına əminliyini ifadə edib.

Tədbir zamanı müasir texnologiyaların, rəqəmsallaşmanın, süni intellektin gömrük sistemində tətbiqinə dair təqdimatlar keçirilib, "köklü dəyişmə yaradan texnologiyalar", blokçeyn texnologiyalarına inamın gücləndirilməsi, gömrük və sərhəd idarəçiliyi tələblərinin digər sektorlarda mövcud qərarlarla qarşılaşdırılması və digər mövzularda fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Rusiya gömrük orqanları arasında qarşılıqlı əməkdaşlıq uğurla inkişaf edir

***Mayın 20-də Moskva şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev və Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavin arasında görüş keçirilib.***





Görüş Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə nümayəndə heyətinin Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində baş tutub.

Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavin Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini, bütün sahələrdə, o cümlədən gömrük sahəsində qarşılıqlı əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb. Vladimir Bulavin Azərbaycan gömrük xidmətinin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə işini, xüsusilə son aylar bu sahədə əldə edilən uğurları, eləcə də Kinoloji Mərkəzin fəaliyyətini yüksək dəyərləndirib.

Federal Gömrük Xidmətinin rəhbəri Rusiya - Azərbaycan sərhədində, Yaraq-Qazmalar buraxılış məntəqəsində sıxlıqların aradan qaldırılması üçün artıq yenidənqurma və yol infrastrukturunun təkmilləşdirilməsi işlərinin aparıldığını diqqətə çatdırıb.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Azərbaycan ilə Rusiya arasında qarşılıqlı əməkdaşlıq münasibətlərindən məmnunluqla bəhs edib və iki ölkənin işgüzar, peşəkar əlaqələrə malik olan gömrük orqanlarının bu münasibətlərin inkişafına töhfə verdiyini vurğulayıb.

Son illər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkənin gömrük sistemində həyata keçirilən islahatlar barədə məlumat verən Səfər Mehdiyev tətbiq edilən yeniliklər hesabına mühüm nailiyyətlərin əldə olunduğunu bildirib. Komitə sədri Azərbaycanın xarici ticarət dövriyyəsində Rusiya Federasiyasının xüsusi çəkiyə malik olduğunu vurğulayıb, iki ölkənin iqtisadi və ticarət münasibətlərinin daha da inkişaf etdirilməsi üçün mövcud olan əlavə imkanlardan səmərəli istifadə olunacağına əminliyini ifadə edib.

Görüşdə gömrük nəzarəti nəticələrinin elektron formada qarşılıqlı tanınmasına dair Protokolun tətbiqi, Yaraq-Qazmalar və Samur buraxılış məntəqələrində mövsümi xarakterli növbələrin aradan qaldırılması, yenidənqurma işlərindən sonra Tahirkənd-Qazmalar və Xanoba buraxılış məntəqələrinin fəaliyyətinin sinxronlaşdırılması, yük axınının Yaraq-Qazmalar-Samur avtomobil buraxılış məntəqəsindən Dərbənd-Yalama dəmiryolu məntəqəsinə paylanması məsələlərinə baxılıb.

Tərəflər informasiya-kommunikasiya texnologiyaları sahəsində birgə əməkdaşlıq, Ümumdünya Gömrük Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyətin effektivliyinin artırılması barədə də müzakirələr aparıblar.

**DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi**

# Azərbaycan və Gürcüstan gömrük xidmətlərinin nümayəndə heyətləri arasında görüş keçirilib

***Mayın 19-da Azərbaycan Respublikasının Gürcüstanla sərhəddə yerləşən "Qırmızı Körpü" gömrük-sərhəd buraxılış məntəqəsində Azərbaycan və Gürcüstan gömrük xidmətlərinin nümayəndə heyətləri arasında görüş keçirilib.***



Tədbirdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Gömrük Səhəd Buraxılış Məntəqələrinin İşinin Təşkili Baş İdarəsinin rəisi Şahin Ələsgərov, Qərb Ərazi Baş Gömrük İdarəsinin rəisi Rauf Rzayev və Komitənin digər aidiyyəti strukturlarının nümayəndələri, Gürcüstan Gəlirlər xidmətinin rəis müavini Vladimir Xundadze, Gömrük departamentinin rəhbəri Zurab Siçinava və digər səlahiyyətli şəxslər iştirak edib.

Görüşdə Azərbaycan-Gürcüstan sərhədində inşa olunacaq "İpək yolu-Abreşumis Qza" gömrük-sərhəd buraxılış məntəqəsi, Bakı-Tbilisi-Qars dəmiryol layihəsi və hüquq-mühafizə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov Azərbaycanla Gürcüstan arasında bütün sahələrdə səmərəli əməkdaşlıq münasibətlərinin qurulduğunu, birgə regional və beynəlxalq əhəmiyyətli layihələrin icra edildiyini, hər iki ölkənin gömrük orqanlarının da bu sahəyə töhfə verdiyini diqqətə çatdırıb.

Bildirilib ki, iki ölkə sərhədində inşa olunacaq yeni gömrük postu gömrük əməliyyatlarının sürətləndirilməsinə, vaxt və vəsait itkisinin qarşısının alınmasına, resurslardan səmərəli istifadə edilməsinə, qarşılıqlı əməkdaşlığın gücləndirilməsinə şərait yaradacaq. Komitə sədrinin müavini Azərbaycan və Gürcüstan üzərindən keçən nəqliyyat dəhlizi vasitəsilə yükdaşımaların həcminin artacağını, buna görə də yeni gömrük-keçid məntəqəsinin fəaliyyətə başlaması üçün işlərin sürətləndirilməsinin vacibliyini vurğulayıb.

Gürcüstan Gəlirlər xidmətinin rəis müavini Vladimir Xundadze iki ölkə arasında bütün sahələrdəki strateji tərəfdaşlıq münasibətlərindən məmnunluqla bəhs edib, eləcə də yeni inşa olunacaq gömrük-sərhəd buraxılış məntəqəsinin beynəlxalq ticarətin inkişafına, yükdaşımaların rahat və sürətli şəkildə həyata keçirilməsinə şərait yaradacağını və layihənin qısa zaman ərzində reallaşdırılması üçün tərəflərin səylərini artıracağına əminliyini ifadə edib.

Sonra nümayəndə heyətləri tərəfindən Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında iki ölkənin dövlət sərhəd-keçid məntəqələri haqqında sazişin son mətni paraflanıb.

Görüşdə Bakı-Tbilisi-Qars dəmiryol layihəsi çərçivəsində məlumat mübadiləsinin təşkilinə dair məsələlər müzakirə olunub və tərəflər bu istiqamətdə əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Eyni zamanda, hüquq-mühafizə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı təcrübə və məlumat mübadiləsinin gücləndirilməsi məsələləri müzakirə edilib. Bu istiqamətdə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və ÜGT-nin birgə həyata keçirdiyi Konteyner Daşımalarına Nəzarət üzrə Qlobal Proqram və ÜGT-nin Yük Hədəfləmə Sistemi üzrə təcrübə mübadiləsinə dair fikir mübadiləsi aparılıb.

# "Bergen sazişi"nə dair işçi qrupun növbəti iclası olub

***Mayın 17-də "Bergen sazişi"nə yenidən baxılması üzrə işçi qrupun ikinci iclası keçirilib.***



Onlayn formatda keçirilən iclasa Ümumdünya Gömrük Təşkilatının Avropa Regionuna rəhbərlik edən Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayev rəhbərlik edib.

Tədbirə Avropa İttifaqı, Rusiya, İslandiya, Gürcüstan, Hollandiya, İspaniya, İsveç, Türkiyə, İtaliya, Qazaxıstan və Çexiyanın nümayəndələri qatılıb.

DGK sədrinin müavini İqbal Babayev işçi qrupun əvvəlki iclasında müzakirə olunan məsələlər, müzakirələrdən sonra üzv dövlətlərin mövqeyi barədə iştirakçıları məlumatlandırıb.

Sonra iclasda əsas ianəçilər qrupunu tərk etməli olan üzvün digər coğrafi altqruplarda təmsil olunmasına dair məsələyə baxılıb.

Xatırladaq ki, qeyd edilən saziş 2009-cu ildə Bergen şəhərində imzalanıb. Bu sənəddə ÜGT-nin Siyasi Komissiyası, Maliyyə və Audit komitələrində Avropa Regionunun təmsilçiliyinə dair prosedurlar əksini tapıb.

# BMT-nin tədbirində Azərbaycanın təcrübəsi paylaşılıb

***"Təhlükələrin qarşısının alınması üzrə risk idarəetmə proqramı əsasında sərnişin məlumat mərkəzlərinin qurulması məsələsində üzv ölkələrə dəstək" mövzusunda onlayn tədbirdə Azərbaycanın təcrübəsi paylaşılıb.***

BMT-nin Cinayətkarlığın qarşısının alınması və Cinayət Ədliyyəsi Komissiyasının keçirdiyi tədbirdə BMT-nin üzvü olan dövlətlərlə yanaşı, bu qurumun Terrorçuluğa qarşı mübarizə üzrə Ofisi, Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi, eləcə də Ümumdünya Gömrük Təşkilatı, İnterpol və "Europol"un nümayəndələri iştirak edib.




Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Beynəlxalq ticarətə dəstək şöbəsinin rəisi Rövşən Namazov "Sərnişinlərə dair ilkin məlumat" (API), "Sərnişin adlarının qeydiyyatı" (PNR) və "Sərnişin məlumat mərkəzi" (PIU) sahəsində Azərbaycanda görülən işlərə dair məruzə ilə çıxış edib, ölkəmizin öncül təcrübəsini paylaşıb.




Bildirilib ki, 2019-cu ildən BMT ilə birgə Azərbaycanda "Sərnişinlərə dair ilkin məlumat" (API) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sistemlərinin qurulması" layihəsi həyata keçirilir. Sözügedən layihənin tətbiqində iştirak edən qurumlararası işçi qrupuna Dövlət Gömrük Komitəsi rəhbərlik edir.

Layihənin əsas məqsədi BMT Təhlükəsizlik Şurasının 2178, 2396 və 2482 saylı qətnamələrini rəhbər tutaraq sərnişin məlumatlarının daha səmərəli təhlilinin aparılması, risk və təhlükələri vaxtında aradan qaldırmaq imkanı verən öncül sistemlərin tətbiq edilməsidir.

Məruzədə hədəflərə nail olmaq məqsədilə görülən işlər, müvafiq işçi qrupların yaradılması və onların fəaliyyətinin koordinasiya edilməsi barədə də məlumat verilib.

Azərbaycan bu tədbirə məruzəçi qismində dəvət edilən üç ölkədən biri olub. Sözügedən sahədə geniş təcrübəsini paylaşdığına görə Azərbaycan tərəfinə minnətdarlıq ifadə edilib.

GÖMRÜK XƏBƏRLƏRİ
CUSTOMS NEWS | ВЕСТНИК ТАМОЖНИ
№ 16 (1202) ·

# Əqli mülkiyyət hüquqlarının qorunmasına dair məsələlər müzakirə edilib

***Mayın 20-də Alman-Azərbaycan Xarici Ticarət Palatasının Vergi, Gömrük və Hüquq Məsələləri İşçi Qrupunun onlayn şəkildə növbəti görüşü keçirilib.***



Tədbirdə Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəisi Səməd Qaralov, Komitənin aidiyyəti strukturlarının əməkdaşları, Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann, icraçı direktorun müavini Nigar Bayramlı, Palatanın mütəxəssisləri və sahibkarlar iştirak edib.

Görüşdə əqli mülkiyyət hüquqlarının qorunması, bu sahədə gömrük orqanları tərəfindən görülən işlər və əməkdaşlığın gücləndirilməsinə dair məsələlər müzakirə olunub.

Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann Dövlət Gömrük Komitəsi ilə əməkdaşlıqdan məmnunluqla bəhs edib, ekspertlər arasında qarşılıqlı fəaliyyət və məsləhətləşmə, birgə tədbirlərin keçirilməsi istiqamətində səmərəli əlaqələrin qurulduğunu bildirib. Tobias Baumann əqli mülkiyyət hüquqlarının qorunması sahəsində də gömrük orqanları ilə birgə fəaliyyətin vacibliyindən danışıb və görüşün həm gömrük orqanları, həm də sahibkarlar üçün faydalı olacağına əminliyini ifadə edib.

DGK Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəisi Səməd Qaralov Alman-Azərbaycan Xarici Ticarət Palatası ilə səmərəli və işgüzar əlaqələrin qurulduğunu, qarşılıqlı faydalı münasibətlərin gömrük işinin təşkilinə, sahibkarlıq mühitinin yaxşılaşdırılmasına, gömrük-biznes əməkdaşlığının gücləndirilməsinə töhfə verdiyini diqqətə çatdırıb.

Səməd Qaralov ticarətin asan və sürətli şəkildə həyata keçirilməsi, gömrük əməliyyatlarının sadələşdirilməsi istiqamətində görülən işlərin, "Yaşıl dəhliz" buraxılış sistemi, informasiya texnologiyaları və könüllü riayət prinsiplərinə əsaslanan layihələrin xarici ticarət iştirakçıları üçün əhəmiyyətindən danışıb. Əqli mülkiyyət hüquqlarının qorunması üçün görülən işlərdən bəhs edən Səməd Qaralov bu sahədə qarşılıqlı işgüzar münasibətlərin ümumi işə fayda verəcəyini bildirib.

Sonra DGK Xarici ticarət iştirakçıları ilə iş şöbəsinin rəisi Mahmud Nuriyev "Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların gömrük reyestrinə daxil edilməsi" mövzusunda təqdimatla çıxış edib. Eyni zamanda, Alman-Azərbaycan Xarici Ticarət Palatasının üzvü olan BHM hüquq şirkətinin nümayəndəsi Türkan Hacıyeva mövzu ilə bağlı təqdimat keçirib.

Sonda sahibkarların sualları cavablandırılıb.

# Növbəti uğurlu əməliyyat

## 244 kiloqramdan artıq narkotik vasitə - heroin aşkar edildi

***Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində gömrükçülər daha bir uğurlu əməliyyat həyata keçirib. Nəticədə 244 kiloqramdan artıq narkotik vasitə - heroinin ölkənin gömrük sərhədindən qaçaqmalçılıq yolu ilə keçirilməsinə cəhdin qarşısı alınıb.***

Dövlət Gömrük Komitəsi Əməliyyat-İstintaq Baş İdarəsinə daxil olan məlumat əsasında, Cənub Ərazi Baş Gömrük İdarəsinin Astara gömrük postunda keçirilən əməliyyat tədbiri nəticəsində Azərbaycan ərazisindən tranzit keçməklə İran İslam Respublikasından Ukraynaya "təzə qarpız" yükü aparan iki ədəd "DAF" markalı yük avtomobili saxlanılıb və gömrük yoxlaması tətbiq edilib.

Sürücülər idarə etdikləri nəqliyyat vasitələrində gömrük orqanına bəyan edilməli hər hansı predmetin, o cümlədən narkotik vasitə və psixotrop maddələrin olmadığını bildirsələr də, kinoloji xidmət iti avtomobillərin qoşqularına reaksiya verdiyindən yük nəqliyyat vasitələri Astara gömrük postunun inzibati ərazisində yerləşən stasionar rentgen qurğusundan keçirilib, şübhəli cizgilər müşahidə edildiyindən həmin nəqliyyat vasitələri əsaslı yoxlanılıb və yük boşaldılıb.

Təkrara yoxlama zamanı yük nəqliyyat vasitələrinin qoşqusunun ön divarının arasındakı boşluqlarda - kustar üsulla düzəldilmiş gizli saxlanc yerində 303 ədəd düzbucaqlı formalı bağlamalarda qablaşdırılma ilə birgə çəkisi 244 kq 605 qram olan heroin aşkar edilib.

***Faktla bağlı araşdırma aparılır.***

**DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi**



# Gömrük Akademiyası və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi birgə təlimlər keçirir

***Gömrük orqanlarının vəzifəli şəxslərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsini təmin etmək məqsədilə "Gömrük işi sahəsində aşkar edilmiş cinayətlərin rəsmiləşdirilməsi xüsusiyyətləri və bu növ cinayətlər üzrə ibtidai araşdırma aparılmasının aktual aspektləri" mövzusunda onlayn təlimlər keçirilir.***



Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası və Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin birgə təşkil etdiyi təlimlər mayın 17-dən başlayaraq 22-dək davam edəcək.

Tədbirin açılış mərasimində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov Mərkəzlə Gömrük Akademiyası arasında yaranmış səmərəli və işgüzar münasibətlər, faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verib. Bildirilib ki, prokurorluğun və gömrük orqanlarının peşəkar və təcrübəli əməkdaşlarının təlimçi qismində cəlb edildiyi təlimlər gömrük orqanlarının təhqiqat və əməliyyat-axtarış fəaliyyəti sahəsində xidmət aparan əməkdaşlarının peşə hazırlığının daha da yüksəldilməsi üçün faydalı olacaq.

Gömrük Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov Dövlət Gömrük Komitəsi və Baş Prokurorluq arasında faydalı və səmərəli əməkdaşlıq platformasının qurulduğunu, bu platformanın tədris sahəsində də inkişaf etdirilməsinin zəruriliyini nəzərə çatdırıb. Qulu Novruzov gələcəkdə həm birgə təlim proqramlarının hazırlanması, həm də təlim prosesinin səmərəli həyata keçirilməsi ilə bağlı uğurlu əməkdaşlıq formatı qurulacağına ümid etdiyini deyib.

Təlimlərə cəlb olunan əməkdaşlara dərslər onlayn platforma üzərindən müvafiq cədvəl üzrə keçirilir.

Təlimlərin proqramını Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Gömrük Akademiyası birgə hazırlayıb.

Proqram - "Əməliyyat-axtarış tədbirləri və metodları, onların elmi-nəzəri, hüquqi əsasları, praktiki məsələləri və bəzi problemləri", "Aşkar edilmiş hüquqpozma faktları üzrə foto və videoçəkilişdən istifadəyə dair qanunvericilikdən irəli gələn tələblər", "Əməliyyat-axtarış tədbirlərinin təşkili və keçirilməsi ilə bağlı sənədlər, onlara verilən tələblər və nəticələrinin sənədləşdirilməsi", "Aşkar edilmiş hüquqpozma faktları üzrə videoçəkilişdən istifadə metodikası", "Əməliyyat-axtarış tədbirlərinin nəticələrinin cinayət mühakimə icraatında və digər istiqamətlərdə istifadə edilməsi" və digər mövzuları əhatə edən mühazirələr, mühazirə-təqdimatlar və praktiki məşğələlərdən ibarətdir.

Mühazirə və məşğələlər DGK Əməliyyat-İstintaq Baş İdarəsinin İstintaq və Təhqiqat İdarəsi Təhqiqat şöbəsinin rəisi Elnur Qurbanov, Əməliyyat-İstintaq Baş İdarəsinin İstintaq və Təhqiqat İdarəsi İstintaq şöbəsinin rəisi İlkin Bağırov, Gömrük Akademiyasının "İxtisas fənləri" kafedrasının baş müəllimi Şahin Hüseynov və Baş Prokurorluğun ETM, Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin məsul vəzifəli şəxsləri ilə birgə aparılır.

# The next successful operation

## More than 244 kilograms of heroin were found

***As part of measures to combat drug trafficking, customs officers performed another successful operation and prevented attempts to smuggle more than 244 kilograms of drugs - heroin across the country's customs border.***

As a result of the operation carried out at the Astara customs post of the Southern Territorial Main Customs Office on the basis of information received by the Main Operations and Investigation Department of the State Customs Committee, two DAF trucks carrying the cargo of "fresh watermelon" from the Islamic Republic of Iran to Ukraine through the territory of Azerbaijan were detained and customs control was applied.

Despite that the drivers declared to the customs authority that there were no substance, including drugs and psychotropic substances in the vehicles they are driving, the trucks passed through a stationary X-ray located in the administrative territory of the Astara customs post after service dogs reacted to the truck trailers and as suspicious features were observed, those vehicles were thoroughly inspected and their cargo unloaded.

During the re-inspection 303 rectangular packages with heroin weighing 244 kg 605 grams were found in cavities - in a secret storage made by hand in the area between the front wall of the truck trailer.

***An investigation is underway.***

**Press and Public Relations Department of State Customs Committee**

# Gömrük Akademiyasında "Təlimçilərin təlimi" başa çatıb

***Dövlət Gömrük Komitəsinin Akademiyasında X-Ray təsvirlərinin analizinə dair təhlükəsizlik sistemləri ilə bağlı "RENFUL" şirkətinin mütəxəssisləri tərəfindən keçirilən "Təlimçilərin təlimi" kursu başa çatıb.***



Gömrük Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov təlim iştirakçılarını təbrik edib. "RENFUL" şirkətinin nümayəndələrinə təşəkkür edən Akademiya rəisi təlimin iştirakçılar üçün faydalı və gələcək fəaliyyətlərində səmərəli olacağına əminliyini ifadə edib.



Sonra iştirakçılara sertifikatlar təqdim olunub.

Xatırladaq ki, X-Ray təsvirlərinin analizinə dair təhlükəsizlik sistemləri ilə bağlı "RENFUL şirkətinin mütəxəssisləri tərəfindən "Təlimçilərin təlimi" kursu xüsusi karantin rejiminin şərtləri nəzərə alınmaqla Akademiyada ənənəvi formada mayın 17-19 tarixlərində keçirilib. Mayın 20-21 tarixlərində isə operator kursu təşkil edilib. Operator kursu mayın 24-26 tarixlərində də keçiriləcək.

Eyni zamanda, sərhəddə xidmət aparan gömrük əməkdaşlarının xarici dil biliklərinin artırılması məqsədilə gömrük-sərhəd buraxılış məntəqələrinin əməkdaşları üçün "İşgüzar ingilis dili bacarıqlarının artırılması" mövzusunda Akademiyada mayın 20-dən iyunun 18-dək onlayn formada təlim keçirilir.

Bununla yanaşı, gömrük orqanlarının vəzifəli şəxslərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsini təmin etmək məqsədilə, mayın 17-dən 22-dək Dövlət Gömrük Komitəsinin Akademiyasının və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə "Gömrük işi sahəsində aşkar edilmiş ci-



nayətlərin rəsmiləşdirilməsi xüsusiyyətləri və bu növ cinayətlər üzrə ibtidai araşdırma aparılmasının aktual aspektləri" mövzusunda onlayn təlim, mayın 17-dən iyunun 30-dək isə Dövlət Gömrük Komitəsi sisteminə daxil olan gömrük orqanlarının vəzifəli şəxsləri üçün onlayn formada ixtisasartırma təlimləri davam edir.

# Narkotik vasitə və psixotrop maddə aşkarlanıb

***Cənub Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında, Biləsuvar gömrük postunda Azərbaycan Respublikası ərazisindən tranzit keçməklə İran İslam Respublikasından Gürcüstana gedən "Iveco" markalı yük avtomobili saxlanılıb və gömrük nəzarətinə cəlb edilib.***

Sürücü idarə etdiyi yük avtomobilində gömrük nəzarətindən gizlədilən və ya gömrük nəzarətinə bəyan olunası hər hansı predmetin olmadığını bildirib. Lakin avtomobil yoxlanılarkən kinoloji xidməti it yük maşınının kabinəsinin ətraflarına reaksiya verib.

Yoxlama zamanı avtomobilin kabinəsinin alt hisssəsindəki boşluqda bir ədəd parça bağlamada ümumilikdə 210 ml metadon məhlulu, 198 ədəd tramadol həbi, 23,304



qram narkotik vasitə - tiryək aşkar edilib.

Xatıraladaq ki, tramadol Azərbaycanda "Güclü təsir edən maddələrin və onların külli miqdarının Siyahısı"na, metadon adlı məhlul isə "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələrin II Siyahısı"na daxildir.

***Faktla bağlı araşdırma aparılır.***

Baş redaktor
N.S.AXUNDOV



«Gömrük xəbərləri»
ictimai-siyasi qəzet

Redaksiyanın ünvanı:
AZ 1007
Bakı şəhəri,
Koveroçkin küçəsi, 30a
Tel.: (012) 404 22 00

Kapital bankın 1 saylı
Nəsimi rayon filialı.
Hesab nömrəmiz 160233070000
kod 200112.
VÖEN 1300315681

LİSENZİYA:
Seriya AV №022325
Qeydiyyat
nömrəsi V 125

İndeks 0178